*V.Quliyev. Cəlil Məmmədquluzadə və Həmidə xanım Cavanşir // Əlyazmalar yanmır. 2021, №2(13), s.135-142.*

UOT: 82.

**Vasif Quliyev**
*AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyat Muzeyi*
*Bakı ş., İstiqlaliyyət küç. 53.*
*e-mail: vasif5000@mail.ru*

# CƏLİL MƏMMƏDQULUZADƏ VƏ HƏMİDƏ XANIM CAVANŞİR

**Xülasə**

*Görkəmli Azərbaycan yazıçısı, “Molla Nəsrəddin” jurnalının yaradıcısı və redaktoru Cəlil Məmmədquluzadənin həyat yoldaşı Həmidə xanım Cavanşir-Məmmədquluzadə iyirmi beş il ərzində onun silahdaşı və məsləkdaşı olmuşdur. Dövrünün ziyalı xanımlarından olan Həmidə xanım Qarabağ xanları nəslindən idi. Onun babası Cəfərqulu xan Qarabağ xanlığının yaradıcısı Pənahəli xanın nəvəsi Batmanqılınc Məhəmməd bəyin nəvəsi idi. Qarabağ xanı Kəhrizli kəndini Cəfərqulu xana bağışlamışdı. Həmidə xanımın atası Əhməd bəy Cavanşir uzun müddət çar ordusunda xidmət etmiş, sonralar doğma kəndinə qayıtmış, Qarabağ tarixinə dair və bir sıra digər əsərlər yazmışdır. Həmidə xanım ilk dəfə 1889-cu ildə hərbi xidmətçi İbrahim bəy Davatdarovla ailə qurmuş, əri vəfat etdikdən sonra 1907-ci ildə Cəlil Məmmədquluzadə ilə ailə həyatı qurmuşdu. Həmidə xanımın xatirələri Cəlil Məmmədquluzadənin həyat və yaradıcılığının bir sıra məqamlarına işıq salır.*

***Açar sözlər:*** *Cəlil Məmmədquluzadə, Həmidə xanım, “Molla Nəsrəddin”, Qarabağ, Kəhrizli*

## Giriş

Həmidə xanım Əhməd bəy qızı Cavanşir Qarabağ xanlığının banisi Pənahəli xanın nəvəsi və “cəmi Qarabağda rəşadət və şücaətlə məşhur olan” (F.Köçərli) “Batmanqılınc” ləqəbli Məhəmməd bəyin nəticəsidir. Pənahəli xan İranın Şiraz şəhərində vəfat edəndən sonra onun ortancıl oğlu, “Batmanqılınc” Məhəmməd bəyin atası Mehrəli ağa Qarabağ xanlıq kürsüsünə yiyələnmək xülyasına düşmüşdü. Lakin siyasi hakimiyyət uğrunda mübarizədə böyük qardaşı İbrahimxəlil xana məğlub olmuş, özünə əvvəlcə İranda Kərim xan Zəndin, sonra isə Qubalı Fətəli xanın yanında siyasi sığınacaq tapmışdı. Amma istəyinə nail ola bilməmişdi, Şamaxıda qətlə yetirilmişdi. Mehrəli ağanın ölümündən sonra oğlu Məhəmməd bəy əmisi İbrahimxəlil xanın sarayında yaşamış, burda təlim-tərbiyə almış, sonralar Qarabağ qoşununun igid sərkərdələrindən biri kimi tanınmışdı. İbrahimxəlil xan Kəhrizli kəndini qardaşı oğlu “Batmanqılınc” Məhəmməd bəyə bağışlamış və bu kənd və onun ərazisi şəxsi mülkiyyətinə çevrilmişdi.

"Batmanqılınc" Məhəmməd bəy Şamaxı xanı Mustafa xan tərəfindən öldürüləndən sonra onun altı yaşlı oğlu Cəfərqulu bəy yetim qalmış və atasının düşmənləri tərəfindən onun da öldürülə biləcəyindən ehtiyatlanan lələsi uşağı götürüb, İrana qohumlarının yanına aparmışdı. Cəfərqulu bəy Tehranda bibilərinin yanında təlim-tərbiyə almış və xeyli müddətdən sonra 1825-ci ildə Şuşaya qayıtmışdı. Bir müddət əmisi oğlu Nəcəfqulu bəyin evində yaşamış və əmisi Əsəd bəyin qızı Nəcəfqulu bəyin bacısı Zəhra xanımla evlənib, xeyli vaxtdan sonra Kəhrizliyə köçmüşdü.1. Həmin vaxt kənd yiyəsizlikdən demək olar ki, xarabazara çevrilmiş, sakinləri pərən-pərən düşmüş, burda yalnız bir neçə ailə qalmışdı. Cəfərqulu bəy Kəhrizlidə tikinti işləri aparmış, yeni quyular qazdırmış, dağılmış kəhrizlərin lazımlarını təmizləmişdi. Özü üçün də bir daxma tikdirmiş, kasıbçılıqla güzəran keçirməyə başlamışdı. Ümumiyyətlə, tarix üçün heç bir əhəmiyyəti olmayan Cəfərqulu bəy Azərbaycan ictimai-siyasi, mədəni həyatında elə bir rol oynamamışdı. O, bəylərə verilən bütün güzəşt və imtiyazlardan istifadə edərək dövlətə heç bir vergi və mükəlləfiyyət verməmiş, yalnız Kəhrizlidə atasına məxsus mülki idarə etməklə məşğul olmuş, adi bir bəy kimi yaşayıb, ömrünü burda başa vurmuşdu (1, s. 137).

Cəfərqulu bəyin altı oğlu, bir qızı vardı. 1828-ci il martın 2-də isə Həmidə xanımın atası Əhməd bəy bu ailədə dünyaya gəlmişdi. Kəhrizlidə məktəb olmadığı üçün yeddi-səkkiz yaşlarında böyük qardaşı İsgəndərlə birlikdə qonşu Boyat kəndindəki mədrəsədə təhsil almışdı.

1843-cü ildə rus çarı I Nikolayın adından Qarabağın sonuncu hakimi Mehdiqulu xan Cavanşirə məktub yazılaraq öz oğlunu və xan sülaləsindən olan bir neçə gənci Peterburqa oxumağa göndərməsi xahiş olunur. Mehdiqulu xanın oğul övladı olmadığından yaxın adamları Əhməd bəyi və Əsəd bəyi, digər bir qohumunu, ümumiyyətlə, Qarabağdan səkkiz nəfər yeniyetmə oğlanı Peterburqa ali təhsil almağa yola salır (2, s. 153). Əhməd bəy Cavanşir Pavlov korpusunda oxuyur və 1845-ci ildə təhsilini başa vurub, süvari polka kornet vəzifəsinə təyin olunur. 1849-cu ildə Polşanın Varşava şəhərində qulluq edərkən həmyerlisi, kornet Əli bəy Sultanovla aralarında mübahisə düşür və onu qılıncla duelə çağırır. Rəqibini çiynindən yaralayır, özü də sağ əlindən yara alır, baş, şəhadət və orta barmaqları şikəst olur. Bu duelə görə Əhməd bəy üç ay həbs cəzasına məhkum edilir, sonra bağışlanılaraq Axtır qusar polkuna xidmətə göndərilir. 1853-1856-cı illər rus-türk müharibəsinin iştirakçısı kimi o, Krımda müalicə alır. On üç illik hərbi xidmətdən sonra Əhməd bəy ştabs-rotmistr rütbəsində ehtiyata buraxılır. Kəhrizliyə qayıdıb, kənd təsərrüfatı işləri ilə məşğul olmağa başlayır (3).

1862-ci ildə Qafqaza yeni canişin təyin olunan Mixail Nikolayeviçi qarşılamaq üçün Qarabağın xan nəslindən olan nüfuzlu və mötəbər adamlardan ibarət nümayəndə heyəti Tiflisə gedir. Əhməd bəy Cavanşir də onların arasında olur. Nümayəndələrin təqdimatında canişin çıxış edir və onların hərəsinə bir neçə sual verir. Rus dilini gözəl bildiyinə görə Əhməd bəy bütün sualları aydınlığı ilə cavablandırır və canişin elə həmin vaxt onu Qafqaz Təbiəti Mühafizə İdarəsinin distansiya rəisi təyin edir. 1865-ci ildə isə Şuşa qəzasının Vərəndə sahəsinə müvəkkil göndərilir. Xidmət dövründə Araz çayından uzunluğu 9 verstə qədər kanal çəkdirir və onu qədim Govurarxla birləşdirir. Daha sonralar Nuxa qəza zemstvo mühafizə dəstəsinin distansiya rəisi vəzifəsində çalışan Əhməd bəy 26 iyul 1868-ci il tarixli ərizəsinə əsasən vəzifəsindən azad olunur, daha doğrusu, müdiriyyətlə yola getmədiyindən istefa verir (4).

Qarabağın tarixini, siyasi, ictimai keçmişini gözəl bilən və özünün şən və müdrik söhbətləriylə tanınan Əhməd bəy Cavanşir sinədəftər idi, çoxlu rəvayətlər, əhvalatlar, ibrətamiz hadisələr danışır, ətrafındakıları özünə cəlb edə bilirdi. Ədəbiyyatı, tarixi, mətbuatı daha çox sevirdi. 1867-ci ildən "Vestnik Yevropı" və "Niva" jurnallarına, bir sıra qəzetlərə

abunə yazılmışdı. Eyni zamanda o, "Qafqaz" və "Novoye obozreniye" qəzetlərinin Qarabağ üzrə müxbiri idi. Əhməd bəy yerli idarəetmə ilə və Qarabağda baş verən mühüm hadisələrlə bağlı bu mətbuat orqanlarında çıxış edirdi. "1747-ci ildən 1805-ci ilə qədər Qarabağ xanlığının siyasi vəziyyətinə dair" əsərini "Novoye obozreniye" qəzetində dərc etdirmiş, sonralar isə ayrıca kitab halında çıxartmışdı.

Əhməd bəy Tiflisdə olarkən Mirzə Fətəli Axundzadə ilə tanış olmuşdu. Həsən bəy Zərdabi ilə məktublaşır, bir çox rus yazıçı və şairlərlə dostluq əlaqələri saxlayırdı. "Xan sarayının əyanlarından olan Molla Pənah haqqında hekayə" adlı tarixi oçerk yazmış, "Azərbaycan və rus atalar sözlərinin toplusu"nu tərtib etmiş, rus şairlərindən V.A.Jukovskinin "Yatmış gözəl", A.S.Puşkinin "Qızıl balıq", "İzmayıl bəy", "Mtsıri" və M.Y.Lermontovun "Mübahisə" əsərlərini Azərbaycan dilinə tərcümə etmişdir.

Əhməd bəy Cavanşir Şuşa bəy komissiyasının üzvü olmuşdu. Bəylərlə tez-tez fikir ayrılığı olurdu. Sözün düzünü dediyinə və ədalətli olduğuna görə özünə xeyli düşmən qazanmışdı. Bəy komissiyasının fəaliyyətində qüsurlar artdıqca və başqa bəylərlə ixtilaflar dərinləşdikcə Əhməd bəy irmissiyanın işlərində iştirak etməkdən imtina etmişdi. Ancaq düşmənləri ömür boyu ondan əl çəkməmiş, onu həbs etdirənə qədər təqib etmişdilər (1, s. 55).

Xan kəndində yaylaq evində yaşayarkən Əhməd bəy Cavanşir arvadını Avropa üslubunda geyindirər, bulvarda onunla üzü açıq, çadrasız, qol-qola gəzərdi. Müsəlman camaatı, xüsusən də zadəganlar ər-arvadın bu hərəkətinə hiddətlənirdilər. Əhməd bəy dilə-dişə düşmüşdü. Haqqında el-obada xoşagəlməz söz-söhbət gəzirdi. Onu kafir, dindəndönmə, məzhəbini danan adlandırır, "urus olub" deyirdilər. Elə o vaxtdan da adı xalq arasında "Urus Əhməd" kimi qalmışdı.

... Həmidə xanım Cavanşir 1872-ci il dekabr ayının 24-də Əhməd bəy Cəfərqulu bəy oğlunun və Xeyransa xanım İbrahim bəy qızının izdivacından doğulmuşdur (1, s. 55). Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, Həmidə xanıma aid olan bütün mənbələrdə onun doğum tarixi səhv olaraq köhnə stillə 1873-cü il yanvarın 6-sı, yeni stillə isə yanvarın 19-u göstərilir. Ən etibarlı mənbələrdən hesab olunan Azərbaycan Sovet Ensiklopediyasında da həmin tarix təkrarlanır (5, s. 496). Görünür, Həmidə xanım Cavanşir haqqında tərcümeyi-hal xarakterli ilk yazı yazan şəxs ehtiyatsızlıq edərək köhnə stili yanvarın 6-dan hesablamış, doğum tarixini 13 gün geri çəkib, yeni stillə ayın 19-u göstərmişdir. Həmidə xanım haqqında sonralar yazanlar da bu tarixi əsas götürmüşlər. Əslində isə onun doğum tarixi köhnə stillə 1872-ci il dekabrın 24-ü, yeni stillə isə 1873-cü il yanvarın 6-sıdır. Həmidə xanım Cavanşir özü də "Xatirələrim"də yazır: "1872-ci il dekabrın sonları imiş. Atamın gənc arvadı Xeyransa xanım ağırayaq imiş. Onlar son günlərini sayır, övlad gözləyirdilər" (1, s. 59).

Həmidə xanım dünyaya gələndə, bəlkə də, qızı olmasından o qədər də razı qalmayan Əhməd bəy Cavanşir sonralar bütün mehrini ona salmışdı. Qızını həddən çox istəmiş, oğlan kimi böyütmüşdü. O, dost-tanışları ilə söhbət zamanı tez-tez deyərmiş: "Aslanın erkəyi, dişisi olmaz. Yaxşı təlim-tərbiyə almış qız oğlandan geri qalmaz. Mənim qızım elə olmalıdır ki, biz kişilər ölüb-getsək, bizi şərəflə əvəz eləyə bilsin"(1, s. 59).

İki il sonra, 1874-cü il noyabrın 2-də Əhməd bəy Cavanşirin oğlu dünyaya gəldi. O, övladına şan-şöhrətli babası, el qəhrəmanı Məhəmməd bəyin adını qoydu. Bir neçə ildən sonra Əhməd bəy uşaqlarını təlim-tərbiyə üçün Xan kəndində dostu, müstəntiq Fedorçenkonun və onun arvadı Nadejda Qavrilovna Fedorçenkonun ailəsinə vermişdi. Bacı-qardaş bir müddət onların evində yaşamış və mükəmməl təhsil almışdılar. Nadejda Qavrilovna onların hər ikisini gimnaziyaya hazırlamışdı. Bu ailə 1885-ci ilin sonlarında Tiflisə köçüb-gedir. Əhməd bəy Məhəmmədi də həmin vaxt onlarla birlikdə göndərir və orda gimnaziyaya qoyur. Həmidə xanım isə atası evinə qayıdır. Gələcəkdə təhsilini davam

etdirmək üçün rus dilini daha dərindən, daha yaxşı mənimsəməklə yanaşı, təsərrüfatı idarə etməyi də öyrənir.

Həyatın hər üzünü görən və dünyanın beşgünlük olduğunu bütün mənasilə dərk edən Əhməd bəy Cavanşir on beş yaşlı qızı Həmidənin tezliklə ailə həyatı qurmasını arzulayırdı. O, qapısına elçi gələcək ilk adama "hə" cavabı verəcəkdi, bir şərtlə ki, əsilli-nəsilli, ağıllı-kamallı, təhsil görmüş olsun. Əhməd bəyin qapısını ilk döyən isə özünün də, qızının da ürəyincə oldu. Bu, İbrahim bəy Mirzə Əhməd bəy oğlu Davatdarov idi.

Bir neçə kəlmə bu gəncin daşıdığı familiyanın mənşəyi və onun özü barədə danışmaq yerinə düşər. "Davatdar" fars sözüdür və hökmdarın şəxsi mürəkkəbqabısını, qələmini, eyni zamanda möhürünü, mühüm sənədləri qoruyub-saxlayan, onun xüsusi göstərişlərini yerinə yetirən, münşi ilə birlikdə fərmanların, hökmlərin tərtibində iştirak edən, həmçinin möhür vurmaq üçün fərmanları, sərəncamları, hesabatları ona təqdim eləyən katib, yüksək rütbəli əmir, saray məmuru deməkdir. Davatdar həm də divanxanada yazı-təsərrüfat işlərinə baxır və baş vəzirə tabe olurdu. Səfəvilər dövründə (1501-1736) davatdar çox böyük vəzifə sayılırdı. Bu dövlətin (1736) və Nadir şah imperiyasının (1747) süqutundan sonra Azərbaycan xanlıqlarında da keçmiş dövlət aparatının bəzi ənənələri, o cümlədən, vəzir, davatdar, mehmandar, minbaşı, divanbəyi, kələntər və sair vəzifələr qorunub-saxlanılırdı.

Zaqafqaziya Rusiyanın tərkibinə daxil olandan sonra yuxarıda adları çəkilən saray əyanlarının sonrakı nəsilləri vaxtilə öz ata-babalarının tutduqları vəzifələrinin adlarını özlərinə familiya götürmüşlər. Qarabağ xanları da bir qayda olaraq, saraydakı yüksək vəzifələrə öz yaxın qohumlarını, ya da öz nəsillərindən olan adamları təyin edirdilər. Sonuncu Qarabağ hakimi Mehdiqulu xan Cavanşirin hakimiyyəti dövründə onun sarayında davatdar vəzifəsində çalışmış qohumu, podporuçik Mirzə Əhməd bəy də (1793, Şuşa - ?, Şuşa) Cavanşir nəslindən idi. Davatdarov familiyasının ilkin daşıyıcıları o özü və oğlanları Rzaqulu bəy, Abutalıb bəy, Əli bəy və rus ordusunun podpolkovniki, İbrahim bəy (14.IX.1851 - 13.VI.1902) olmuşlar. Qarabağda dörd evdən ibarət olan Məfruzlu Qızıl Arvat obası bu nəslə məxsus idi (6,s. 22).

İbrahim bəy Davatdarov 1851-ci il sentyabrın 14-də Şuşa qəzasının Ərəblər kəndində anadan olmuşdur. Ev təhsili almış, Tiflisdə yunker məktəbini bitirmişdir. 16-cı qrenadyor minqrel polkunda xidmətə başlamış, sonra hərbi xidmətini 154-cü Dərbənd polkunda davam etdirmişdir. O bir çox hərbi yürüşlərdə və əməliyyatlarda iştirak etmiş, IV dərəcəli "Müqəddəs Vladimir", II dərəcəli "Müqəddəs Anna", II dərəcəli "Müqəddəs Stanislavski" ordenlərinə layiq görülmüş, 1896-cı ildə imperator III Aleksandrın çarlığı şərəfinə Müqəddəs Aleksandr Nevski lentində döşdə gəzdirmək üçün gümüş medalla təltif edilmişdir...(6,s. 23-24).

Aralarında 22 il yaş fərqi olmasına baxmayaraq, Həmidə xanım tərəddüd etmədən İbrahim bəyə ərə getmiş və 1889-cu ildə onların toyu olmuşdu. Onların iki övladı - 1890-cı ildə qızları Mina, 1900-cü ildə isə oğlanları Müzəffər anadan olmuşdu.

1893-cü ildə İbrahim bəy Davatdarova podpolkovnik rütbəsi verildi və o, Polşanın Litva ilə səhədində yerləşən Brest-Litovsk şəhəri yaxınlığında 7-ci piyada Revel polkuna xidmətə göndərildi. Həmidə xanım taleyini müvəqqəti olaraq ərinin xidməti yeri ilə bağladı. Burda yaşadığı altı il ərzində bir neçə xarici dildə danışmağı öyrəndi, musiqiylə, rəqslə məşğul oldu, ardıcıl və ciddi mütaliə yoluyla Avropa mədəniyyəti, ədəbiyyatı, incəsənəti, Qərb ənənələri ilə yaxından tanış oldu, çox şeylər görüb-götürdü, bir sözlə, günlərini bu qərib və uzaq diyarda daha maraqlı keçirdi. Bütün bunlar da Həmidə xanımın şəxsiyyətinin formalaşmasına çox böyük təsir göstərdi. 1899-cu ildə İbrahim bəy Davatdarov yeni hərbi təyinat alaraq Türkiyənin Qars şəhərində yerləşən 155-ci piyada Quba polkunda xidmətə başladı, az sonra Qars qalasının komendantı vəzifəsi də ona həvalə olundu. Ailənin ikinci

övladı Müzəffər də gözünü dünyaya açandan sonra bu ailə qayğısız həyat sürməyə başladı... Lakin bu xoşbəxtçilik uzun sürmədi.

Sən demə, Həmidə xanımın həyatının ən çətin anları, ən çətin günləri hələ irəlidəymiş. O, üç il ərzində üç əzizini itirdi. Əvvəl özünə arxa-dayaq saydığı ərini, onun ardınca əziz-xələf qardaşı Məhəmmədi, sonra isə "dağ boyda" atasını.

Həmidə xanımın qardaşı Məhəmməd bəy Tiflis gimnaziyasını bitirdikdən sonra Moskvada Petrovski-Razumovski adına Kənd Təsərrüfatı Akademiyasına daxil olmuş və 1899-cu ildə oranı bitirmişdi. Əhməd bəy oğlunun Kəhrizlidə onun işlərini davam etdirməsini istəyirdi. Məhəmməd bəy isə əksinə Moskvaya qayıtmağa can atırdı. Onun bütün fikri-zikri ölkədə alovlanmaqda olan inqilabi hadisələrdə idi. Həmin il bütün Rusiyada genişmiqyaslı tələbə tətilləri başlanmışdı. Məhəmməd bəyin yaxın dostları və məsləkdaşlarından iki nəfər bu tətillərlə bağlı intihar eləmişdi. Bu hadisə onu çox sarsıtmış və bununla əlaqədar tezliklə Moskvaya qayıtmaq fikrində olduğunu, həyat planlarını atasına bildirmişdi. Oğlunun Rusiyaya getsə, bir daha vətənə qayıtmayacağını biləndə Əhməd bəy hövsələdən çıxaraq Məhəmməd bəyi sərt şəkildə danlamış və onunla çox acıqla davranmışdır. Atasının tənbehindən təsirlənən Məhəmməd bəy acıq eləyib, atına süvar olaraq Yevlax qəsəbəsinə tərəf çapmış, hikkəsindən özünü mindiyi atla birlikdə dəmir yol stansiyasında yola düşən qatarın altına ataraq həlak olmuşdu. Bu hadisə 1900-cü il sentyabr ayının 4-də baş vermişdi. Elə həmin gün oğlunun bu faciəsini Əhməd bəy Cavanşirə çatdırmışdılar...

1902-ci il iyunun 13-də isə İbrahim bəy Davatdarov ürək iflicindən vəfat elədi. Onu Qars şəhər qəbiristanlığında dəfn etdilər. Kürəkəninin ölüm xəbərini eşidən Əhvəd bəy Cavanşir Qarsa yollanaraq başsız qalmış qızının ailəsini də götürüb, Qarabağa döndü (7).

Oğlu Məhəmməd bəyin və kürəkəni İbrahim bəyin ölümündən sonra artıq qocalıb, yaşa dolmuş Əhməd bəy bütün ümidini xarakterindəki bəzi xüsusiyyətləri - ciddiliyi və sərtliyi ilə atasına çəkən qızına bağlamış, bütün mehrini ona salmışdı. Lakin yetmiş beş yaşlı qoca neçə vaxt idi ki, xəstəlikdən əziyyət çəkir, halından tez-tez şikayət edirdi. Ürəyinə dammışdı ki, artıq ömrünün sonudur. 1903-cü il yanvar ayının 2-də, o, yatağa düşdü. Vaxtlı-vaxtında edilən tibbi yardımlara baxmayaraq, yerdən dura bilməyəcəyinə bir daha əmin olan Əhməd bəy Həmidə xanıma son vəsiyyətlərini elədi. Və ayın 9-da onun taqətdən düşən zəifləmiş ürəyi döyünməkdən qaldı. Vəsiyyətinə görə Əhməd bəy Cavanşir Kəhrizli kənd qəbiristanlığında valideynlərinin yanında torpağa tapşırıldı. Atasından qızına 8000 manat dəyərində olan Kəhrizli kəndi və adi, ortabab ev miras qaldı (7). Mülklərini və təsərrüfatlarını idarə etmək Həmidə xanımın üzərinə düşdü (8).

Həmidə xanım Cavanşir öz övladlıq borcunu yerinə yetirərək atasının ölümqabağı elədiyi vəsiyyətləri yerinə yetirməyə başladı. İlk növbədə, onun artıq senzuradan keçmiş və vəsait yoxluğundan çap etdirə bilmədiyi yazılarını bir yerə topladı, görkəmli ədəbiyyatşünas-alim Firudin bəy Köçərliyə "Əhməd bəy Cavanşirin tərcümeyi-halı" adlı ön söz yazdırdı. Və 1905-ci il sentyabr ayının sonlarında onları toplu halında çap etdirmək üçün Tiflisə yola düşdü. Həmidə xanım hər dəfə bu şəhərə gələrkən rəfiqəsi Sofya xanım Şaxtaxtinskayanın evində qalırdı. Bu dəfə isə o, Tiflisə Nücəba Qızlar İnstitutunda oxuyan qızı Mina xanımla birlikdə gəlmişdi (1,s. 99). Həmidə xanımın yaxın adamları və dost-tanışları məsləhət görmüşdülər ki, "Qeyrət" mətbəəsinin müdiri Cəlil Məmmədquluzadəyə müraciət eləsin. Ona görə də fikrini Sofya xanıma da bildirdi. Belə qərara gəldilər ki, Mirzə Cəlili evə dəvət eləyib, bu barədə söhbət eləsinlər... Və Cəlil Məmmədquluzadə dostu Ömər Faiq Nemanzadə ilə birlikdə Sofya xanımgilə gəldi. Həmidə xanım atasının yazılarını ona verib, xahiş elədi ki, onları çap eləsin. Mirzə Cəlil əlyazmalara göz gəzdirib, bəyəndiyini bildirdi və çap

eləməyə söz verərək bu barədə müqavilə sənədi də verdi. Sənəddə göstərilirdi ki, 1000 nüsxə kitab 240 manata çap ediləcək.

Həmin gün Həmidə xanımla Mirzə Cəlilin söhbəti alındı. Onlar xeyli dərdləşdilər. Azərbaycan xalqının geridə qalmasından, müsəlman qadınlarının digər xalqların qadınlarından çox-çox geridə qalmasından, yenicə baş vermiş rus inqilabından və onun törətdiyi erməni-müsəlman qırğınından, Tiflisdə müsəlman qadınlarının xeyriyyə cəmiyyətinin yaradılmasının vacibliyindən xeyli, uzun-uzadı söhbət elədilər. Və Mirzə Cəlilin qadın cəmiyyəti yaratmaq barədə fikri Sofya xanımın da, Həmidə xanımın da ürəyinə yatdı və elə həmin il bu iki ziyalı qadının yüksək təşkilatçılıq işləri nəticəsində Tiflis müsəlman qadınlarının Xeyriyyə Cəmiyyəti rəsmi olaraq qeydiyyatdan keçdi və fəaliyyətə başladı. Cəmiyyətin üzvləri Mirzə Fətəli Axundzadənin nəvəsi Mələksima xanım, Gövhər xanım Qacar, Gövhər xanım Qayıbova-Usubova və başqaları qadınlar arasında maarif və mədəniyyətin yayılmasına çalışırdılar.

1906-cı ilin may ayında Həmidə xanım Tiflisə qızı Mina xanımı yoluxmağa gəlmişdi. Rəfiqəsi Sofya xanım Şaxtaxtinskayanın evində o, Mirzə Cəlillə yenidən görüşdü. Artıq Həmidə xanım "Molla Nəsrəddin" jurnalının nəşr olunduğundan xəbərdar idi və bu məcmuədən xoşu gəldiyi üçün hətta ona abunə də yazılmışdı. Ona görə də jurnalı Mirzə Cəlilə bərk tərifləyərək Qarabağda onun nəinki ziyalılara, hətta xalq kütlələrinə təsirindən, "qopardığı gurultudan və bununla bağlı hadisələrdən" danışdı. Xahiş elədi ki, Əhməd bəyin kitabının üz qabığına satışdan gələcək gəlirin müsəlman qız məktəbinə ianə ediləcəyi haqqında mətn yazsın. Mirzə Cəlil sonra "Molla Nəsrəddin"in bütün abunəçilərinin siyahısını Həmidə xanıma verdi. Həmidə xanım jurnalın bütün abunəçilərinə kitablar göndərəcəkdi.

1906-cı il dekabrın sonlarında Sofya xanım Həmidə xanıma yazdığı məktubda Mirzə Cəlilin adından ona təklif edirdi ki, ədiblə ailə həyatı qursun. Lakin Həmidə xanım cavab məktubunda bildirdi ki, Mirzə Cəlilə ərə gedə bilməz, onların yolları ayrı-ayrıdır. Ona görə ki, o, atasının vəziyyətini yerinə yetirməli, onun kənddə apardığı mədəni quruculuq işlərini davam etdirməlidir... Ancaq növbəti dəfə Həmidə xanım Tiflisdə olarkən Sofya xanım söhbəti yenə də təzələyib, ondan cavab gözlədi. Həmidə xanım qərara gəldi ki, kənddəki işlərini buraxaraq şəhərə köçsün. Və Mirzə Cəlilin evlilik təklifini bəyəndi. Qərara gəldilər ki, kəbin kəsmək mərasimini payızda eləsinlər. Həmidə xanımın Mirzə Cəlilin kəndə qonaq gəlməsi və bir az dincəlməsi təklifini o, məmnuniyyətlə qəbul elədi. İyun ayının əvvəllərində Həmidə xanım Cavanşir, qızı Mina xanım Davatdarova, Cəlil Məmmədquluzadə Tiflisdən Kəhrizliyə yola düşdülər. Amma Mirzə Cəlil xahiş elədi ki, onun kim olduğunu heç kəsə bildirməsinlər. Desinlər ki, Minanın müəllimidir, ad-familiyası da Məhəmməd Həsənovdur. Lakin Həmidə xanımın kəbinini nəzərdə tutulduğu kimi payızda yox, elə indi kəsdirmək lazımdır. Çünki yad bir kişinin onun evində qalması camaat arasında lazımsız söz-söhbətə səbəb olardı və Əhməd bəyin düşmənləri bundan öz xeyirləri üçün istifadə edərdilər. Toyu lap yaxınlarda eləməyi qərara aldılar. Digər tərəfdən də Həmidə xanımın qızı Mina dul qalmış anasının ərə getmək fikrini alqışlaması və bunun üçün onu dilə tutması bu işi tezləşdirməyə tələsdirdi. Ona görə də Həmidə xanım bu barədə Şuşaya, qohumu, atasının ən yaxın dostlarından biri və şəxsi ailə həkimləri Əbdülkərim bəy Mehmandarovla məsləhətləşmək üçün teleqraf göndərib, Kəhrizliyə gəlməsini xahiş elədi. Doktor Mehmandarov ertəsi gün artıq Həmidə xanımın evindəydi. Əbdülkərim bəy məsələdən halı olandan sonra "Sizin bu istəyiniz məni təəccübləndirmir. Gec, ya tez kimisə sevməli və ərə getməli idiniz. Etdiyiniz bu seçim isə mənim xoşuma gəlir. Mirzə Cəlil nadir istedad sahibidir. Onun böyük gələcəyi var. Ancaq onun öz mühüm fəaliyyətini buraxıb, bura, Sizin yanınıza gəlməsi təəssüf doğurur. Eyni zamanda Sizin də bu "qara camaat" arasında apardığınız lazımlı fəaliyyəti buraxıb, şəhərə köçməyiniz, öz növbəsində, təəssüf doğurur. Ayrılıqda sizin hər ikiniz

cəmiyyətimiz üçün çox gərəkli ictimai xadimlərsiniz, ancaq bir yerdə bir-birinizə mane ola bilərsiniz. Ziyalı qadınlar, adətən, ərlərinə qarşı çox tələbkar olurlar, hər bir hərəkətlərinə görə hesab soruşurlar. Bu isə onları sıxır və bədbəxt edir. Bir az ehtiyatlı olun. Onu qorumaq və çox şeylərin üstündən keçmək lazımdır" - deyə öz nəsihətini eləyərək onlara xeyir-dua verib, xoşbəxtlik dilədi.

1907-ci il iyun ayının 15-də qonşu Quzanlı kəndindən molla çağırıldı. Qohumların, yaxınların və kənd camaatının iştirakı və şahidliyi ilə Həmidə xanımla Cəlil Məmmədquluzadənin kəbini kəsildi, hər ikisinin iyirmi beş il davam edəcək sarsılmaz ailə həyatının möhkəm təməl daşları qoyuldu.

**Nəticə**

*Görkəmli Azərbaycan ədibi Cəlil Məmmədquluzadənin həyat yoldaşı Həmidə xanım Cavanşir-Məmmədquluzadə Qarabağ xanları ailəsindən idi, dövrünün ziyalı qadınlarından biri kimi maarifçilik fəaliyyəti ilə məşğul idi. Həmidə xanımın atası Əhməd bəy Cavanşir də gəncliyində hərbi qulluqçu olmağına baxmayaraq, ziyalı şəxs olmuş, Qarabağ tarixinə dair və başqa əsərlər yazmış, doğma yurdunun abadlaşması ilə məşğul olmuşdu. Həmidə xanım atasının əsərlərini çap etdirmək məqsədi ilə Tiflisdə Cəlil Məmmədquluzadə ilə tanış olmuş, tanışlıqdan sonra bir çox məsələlərə dair fikirlərinin üst-üstə düşdüyü məlum olmuşdur. Onlar 1907-ci ilin15 iyununda ailə həyatı qurmuş, iyirmi beş il, Mirzə Cəlilin vəfatına qədər birlikdə yaşamışlar.*

**Ədəbiyyat siyahısı:**

1. Həmidə xanım Cavanşir. "Xatirələrim". Bakı: "Apostroff" nəşriyyatı, 2011.
2. "Qarabağnamələr". Birinci kitab. Bakı: "Yazıçı" nəşriyyatı, 1989.
3. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi. Fond 187, siyahı 1, saxlama vahidi 11.
4. Keçmiş Vərəndə sahə iclasçısı, ştabs-rotmistr Əhməd bəy Cavanşirin xidmət kitabçası. 10 yanvar 1884-cü il. Surəti // S.Mümtaz adına Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət Arxivi. Heydər Hüseynovun arxivi, fond 514, siyahı 1, saxlama vahidi 399.
5. Məmmədquluzadə-Cavanşir Həmidə xanım Əhməd bəy qızı // Azərbaycan Sovet Ensiklopediyası, VI cild, Bakı, 1982.
6. N.Cavanşir. "Davatdarovlar" məqaləsi // Azərbaycan tarixi şəcərə cəmiyyətinin xəbərləri, IV buraxılış, Bakı, Adiloğlu, 2003.
7. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, fond 170, siyahı 2, saxlama vahidi 1385.

**Vasif Guliyev**

**Jalil Mammadguluzadeh and Hamida khanim Javanshir**

The wife of an outstanding Azerbaijani writer, creator and editor of the "Molla Nasraddin" magazine Jalil Mammmadgluzadeh Hamida khanim Javanshir Mammmad-guluzadeh has been his associate for twenty-five years. Hamida khanim, who was one of the most intelligent women of her time, was a descendant of the Karabakh khans. Her grandfather, Jafargulu Khan, was the grandson of Batmangylyndj Mahammad bey, who was the grandson of Panahali Khan, the founder of the Karabakh khanate. The Karabakh khan presented Jafargulu khan the village of Kahrizli. Hamida khanim`s father Ahmad bey

Javanshir served in the tsarist army for a long time, then returned to his native village, wrote a work on the history of Karabakh and a number of other works. Hamida xanim first married with Ibrahim bey Davatdarov in 1889, after his death in 1907 she married Jalil Mammadguluzadeh. In his memories, Hamida khanim sheds light on a number of moments in the life and work of Jalil Mammadguluzadeh.

***Key words:*** *Jalil Mammmadguluzadeh, Hamida khanim, “Molla Nasraddin”, Karabagh, Kahrizli*

**Васиф Гулиев**

**Джалил Мамедгулузаде и Гамида ханым Джаваншир**

Жена выдающегося азербайджанского писателя, создателя и редактора журнала «Молла Насреддин» Джалила Мамедгулузаде Гамида ханым Джаваншир Мамедгулузаде в течении двадцати пяти лет была его соратником и сподвижником. Гамида ханым, которая была одной из интеллигентнейщих женшин своего времени, являлась потомком карабахских ханов. Ее дед Джафаргулу хан был внуком Батмангылынджа Мухаммед бека - внука оснавателя Карабахского ханства Панахали хана. Карабахский хан подарил Джафаргулу хану деревню Кяхризли. Отец Гамиды ханым Ахмед бек Джаваншир долгое время служил в царской армии, потом вернулся в родную деревню, написал труд об истории Карабаха и ряд других произведений. Гамида ханым впервые вышла замуж в 1889 году за военнослужашего Ибрагим бека Даватдарова, а после его смерти в 1907 году вышла замуж за Джалила Мамедгулузаде. В своих воспоминаниях Гамида ханым проливает свет на ряд моментов жизни и творчества Джалила Мамедгулузаде.

***Ключевые слова:*** *Джалил Мамедгулузаде, Гамида ханым, «Молла Насреддин», Карабах, Кяхризли*

Filologiya üzrə elmlər doktoru, dosent
**Paşa Kərimov** tərəfindən çapa tövsiyə olunmuşdur.